**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№ Q-BS/005**

**Bakı şəhəri** **“01” sentyabr 2021-ci il**

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş əkin sahəsində bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin Tovuz regional bölməsi tərəfindən 5 - 7 avqust 2021-ci il tarixlərində Tovuz rayonunun Qovlar kənd sakini Teymur İbrahim oğlu İbrahimova məxsus kartof sahəsinə fitosanitar baxış keçirilmişdir. Baxış zamanı sahədə torpaqdan və kartofdan nümunələr götürülərək, araşdırılması üçün Agentliyin tabeliyində Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun Mərkəzi Fitosanitar laboratoriyasına təqdim edilmişdir.

Laboratoriyanın 2021-ci il 31 avqust tarixli 1q2x717/LAB03-T-003 nömrəli sınaq protokolu ilə T. İ. İbrahimova məxsus əkin sahəsindən götürülmüş torpaq və kartof nümunələrində karantin tətbiq edilən kartofun qonur çürümə bakteriyasının (*Ralstonia solanacearum* (Smith) Yabuchi et al.) mövcudluğu təsdiq edilmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə”nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Tovuz rayonunun Qovlar kəndi ərazisində yerləşən, kənd sakini T. İ. İbarahimova məxsus əkin sahəsində (bundan sonra – sirayətlənmiş sahə) əkin və digər təsərrüfat işləri zamanı istifadə edilən bütün avadanlıqlar, alətlər, qablaşdırma vasitələri və bu sahədə istehsal edilmiş kartofun saxlandığı anbarlar dərhal və hərtərəfli təmizlənərək dezinfeksiya edilsin.

**2.** Sirayətlənmiş sahədə 5 il müddətində kartofun qonur çürümə xəstəliyinin əsas sahib bitkilərindən olan kartof, pomidor, badımcan, tütün, yerfındığı, bibər və pambığın

əkilməsi dayandırılsın və birinci ildə dincə qoyulmaqla növbəti illərdə buğda, yonca, lobya və qarğıdalı daxil edilməklə növbəli əkin tətbiq edilsin.

**3.** Sirayətlənmiş sahədə istifadə edilən texnika və alətlər yalnız təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadə olunsun.

**4.** Bakteriyanın su vasitəsilə yayıla bilməsi nəzərə alınaraq digər sahələrin suvarılması üçün istifadə edilən su kanallarının sirayətlənmiş sahədən keçməməsi, sahənin və su kanalının ətrafının alaq otlarından, xüsusən də qara quşüzümü (*Solanum nigrum L.*) və gicitkəndən (*Urtica dioica L.*) təmizlənməsi təmin edilsin.

**5.** Sirayətlənmiş sahədə qalan kartof toxumları və qalıqların cücərtiləri göründüyü təqdirdə dərhal məhv edilməsi, hər 6 aydan bir torpaq və qrunt sularından nümunələr götürülərək kartofun qonur çürümə bakteriyası üzrə laborator müayinəsi həyata keçirilsin.

**6.** Sirayətlənmiş sahənin ətrafında 3 km radiusda ərazi bufer zona olaraq müəyyənləşdirilsin, sirayətlənmiş sahə üçün tətbiq edilən tədbirlər bu zonada olan əkin sahələrində də tətbiq edilsin.

**7.** Tovuz rayonu ərazisində kartof toxumçuluğu ilə məşğul olan təsərrüfatlarda torpaqların bakteriya mənşəli xəstəliklər və bitki nematodlarına görə müayinələrə cəlb edilməsi diqqətdə saxlanılsın.

**8.** Nəzərə alınsın ki, Tovuz rayonu ərazisində digər kartofçuluq təsərrüfatlarında əkin üçün yalnız laborator müayinədən keçmiş, sertifikatlı toxum materialı istifadə edilməli, hər 3 ildən bir əkilən sort yenilənməli, növbəli əkin təmin edilməli və bu zaman dincə qoyulmuş torpaqlardan istifadə edilməlidir.

**9.** Növbəli əkində kartof əvvəlki əkin yerində ən tezi 3 ildən bir əkilməlidir. Azot gübrələrinin verilməsi, xəstəlik daşıyıcısı olan həşərat və nematodlarla, eləcə də rezervasiya rolu oynayan alaq otları ilə mübarizə ön planda olmalıdır.

**10.** Bu Qərarın icrasına nəzarət Agentliyin Tovuz regional bölməsi tərəfindən həyata keçirilsin.

**11.** Bu Qərarın aidiyyəti üzrə göndərilməsi Agentlik aparatının Bitki Sağlamlığı şöbəsi tərəfindən təmin edilsin.

**Bitki sağlamlığı şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**